

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 230 (21.131)

3 dekabr 2014-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 2-də Beynəlxalq Telekommunikasiya İttifaqının yeni seçilmiş baş katibi Haulin Zaonu qəbul edib.

Görüşdə Azərbaycanda informasiya-kommunikasiya texnologiyaları sahəsində böyük uğurların əldə edildiyi vurğulandı, "BakuTel-2014" telekommunikasiya və informasiya texnologiyaları sərgisinin ənənəvi olaraq hər il Bakıda keçirilməsinin və tədbirə olan marağın ildən-ilə artmasının önəmi qeyd edildi, sərginin bu sahədə beynəlxalq əməkdaşlığın genişləndirilməsi işinə öz töhfəsini verəcəyinə əminlik ifadə olundu.

Söhbət zamanı əməkdaşlığımızın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 2-də Baku Expo Mərkəzində "BakuTel-2014" XX Azərbaycan Beynəlxalq Telekommunikasiya və İnformasiya Texnologiyaları Sərgisi ilə tanış olub.



# Şahbuz rayonunun Nursu kəndində kompleks quruculuq işləri aparılmışdır

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində həyata keçirilən tədbirlər ölkəmizin hər yerində, eləcə də Naxçıvan Muxtar Respublikasında bütün sahələrin inkişafına təkan vermişdir. Bu gün Naxçıvan şəhərində, rayon mərkəzlərində və kəndlərdə müasir infrastruktur yaradılmışdır. Həyata keçirilən tədbirlər Şahbuz rayonunu da əhatə etmişdir. Aparılan genişmiqyaslı quruculuq işləri rayonun kəndlərini müasir görkəmə qovuşdurmuşdur. Bu il rayonun Nursu kəndində də kompleks quruculuq işləri aparılmış, yeni sosial obyektlər tikilmişdir.

## Şahbuz şəhər–Mahmudoba–Nursu avtomobil yolu yenidən qurulmuşdur





Müasir və rahat yol şəbəkələrinin yaradılması inkişafın başlıca şərtidir. Son illər muxtar respublikada bu məsələyə xüsusi diqqət yetirilir, kənd yollarının inşası və yenidən qurulması diqqət mərkəzində saxlanılır. Bu sahədə həyata keçirilən tədbirlərin davamı olaraq, Şahbuz şəhər-Mahmudoba-Nursu avtomobil yolu əsaslı şəkildə yenidən qurulmuşdur.

Dekabrın 1-də avtomobil yolunun açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov muxtar respublikada kənd yollarının abadlaşdırılması istiqamətində həyata keçirilən tədbirlərdən Nursu kəndinə də pay düşdüyünü bildirmiş, bu münasibətlə sakinləri təbrik etmiş, açılışı bildirən lenti kəsmişdir.

Məlumat verilmişdir ki, yenidənqurma işlərindən sonra yolda əhalinin və avtomobillərin rahat hərəkəti təmin olunmuş, yaşayış məntəqələri arasında əlaqə yaxşılaşdırılmışdır. Mahmudoba, Nursu kəndlərini və Şahbuz şəhərinin bir hissəsini birləşdirən avtomobil yolunun ümumi uzunluğu 11,2 kilometrdir. Yolda tikinti işləri mühəndis-texniki tələblərə uyğun aparılmış, yol yatağı genişləndirilmiş, asfalt örtük salınmışdır. Layihə çərçivəsində yolun üzərindəki 4 körpü də təmir edilmiş, 48 su keçidi tikilmiş, istinad divarları və 360 metr beton kanal çəkilmişdir.

## "Muxtariyyət ili"ndə 14-cü məktəb binası Nursu kəndində istifadəyə verilmişdir



Dekabrın 1-də Nursu kənd tam orta məktəbinin yeni binasının açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılış tədbirində iştirak etmişdir.

Tədbirdə çıxış edən məktəbin direktoru Xanəli Əmişov demişdir ki, həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində Şahbuz rayonunun kəndləri də günü-gündən inkişaf edir, gənclərin bilikli, vətənpərvər böyüməsi üçün hər cür şərait yaradılır. Kəndlərdə tikilib istifadəyə verilən müasir məktəb binaları təhsilin səviyyəsinin yüksəlməsinə imkan verir. Bütün bunlar isə müəllimlərin məsuliyyətini daha da artırır, gənclərin təlim-tərbiyəsində daha əzmlə çalışmağa ruhlandırır. Xanəli Əmişov Nursu kənd məktəbində yaradılan şəraitə görə kollektiv adından minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Nursu kənd tam orta məktəbinin müasir tələblər səviyyəsində qurularaq istifadəyə verildiyini bildirmiş, bu münasibətlə məktəbin kollektivini təbrik edərək demişdir: "Təhsil hər bir ölkənin gələcəyidir. Ölkənin gələcəyinin necə olduğunu bilmək üçün onun gəncliyinə nəzər salmaq lazımdır. Əgər bir ölkənin gəncliyi təhsilli və vətənpərvərdirsə, onun gələcəyi də etibarlı olacaq, həmin ölkə inkişaf edərək dünya dövlətləri sırasında öz layiqli yerini tutacaqdır".

Ali Məclisin Sədri ümummilli liderimiz Heydər Əliyevin ***"Gənclərimizə yüksək təhsil verməklə bərabər, onları əsl vətəndaş kimi böyütməliyik"*** fikrini xatırladaraq demişdir: "Vətənpərvər gənclik məktəblərdə hazırlanır. Müəllimlər şagirdlərə yüksək təhsil verməklə yanaşı, həm də onlara vətəndaşlıq hissləri aşılamalıdırlar. Bu da gənclərin əsl vətəndaş kimi böyümələrinə, harada yaşamasından asılı olmayaraq, xalqına və ölkəsinə layiqincə xidmət etmələrinə imkan verəcəkdir. Müasir məktəb binalarının tikilib istifadəyə verilməsi də məhz bu məqsədə xidmət edir. Nursu kənd tam orta məktəbində gənclərin hərtərəfli yetişdirilməsi, onların əsl vətəndaş kimi böyüdülməsi üçün hər cür şərait yaradılmış, müasir tədris avadanlıqları quraşdırılmışdır. Məktəbdə yaradılan bu şərait imkan verəcəkdir ki, gənclər qədim və müasir dövr tariximizi ətraflı öyrənsin, ölkəmizdə və dünyada baş verən bütün yenilikləri elektron formada izləsin, bilik və dünyagörüşlərini daha da artırsınlar".

Ali Məclisin Sədri demişdir: "Ölkəmizdə təhsilin inkişafına lazımi diqqət və qayğı göstərilir. Yeni məktəb binalarının istifadəyə verilməsi, müəllimlərin əməyinin qiymətləndirilməsi təhsilə göstərilən dövlət qayğısının daha bir nümunəsidir. Bütün bu işlər ölkəmizin gələcəyinə hesablanmış tədbirlərdir. Hər bir müəllim bilməlidir ki, o, ölkənin gələcəyini hazırlayır. Hər bir gənc isə bilməlidir ki, o, ölkəmizin gələcəyinə cavabdehdir. Ona görə də Nursu kənd tam orta məktəbində bundan sonra da müəllim tələbkarlığı və şagird çalışqanlığı birgə götürülməli, vətənpərvər və təhsilli gənclər yetişdirilməlidir".

Nursu kənd tam orta məktəbinin nailiyyətlərinin nümunə gücündə olduğunu qeyd edən Ali Məclisin Sədri kollektivə təşəkkürünü bildirmiş və onlara gələcək tədrisdə uğurlar arzulamışdır.

Açılışı bildirən lent kəsildikdən sonra məktəb binasına baxış olmuşdur.

Məlumat verilmişdir ki, 234 şagird yerlik məktəbdə 3-ü elektron lövhəli olmaqla, 13 sinif otağı, kimya-biologiya və fizika laboratoriyaları, hərbi kabinə, kompüter, şahmat və müəllimlər otaqları, kitabxana, bufet, idman zalı və açıq idman qurğuları istifadəyə verilmişdir.

Ardı 2-ci səhifədə



Məktəbin kitabxana fondunda 1289 latın qrafikalı dərslik və 1185 bədii ədəbiyyat olmaqla, 2474 kitab vardır. Bildirilmişdir ki, məktəblərdə müasir tədris vasitələrinin tətbiqi ilə yanaşı, şagirdlərin kitabxanalara cəlbi də vacib məsələdir. Ona görə də kitabxanada bədii əsərlərin müzakirələri, kitab sərgiləri təşkil olunmalı, əlamətdar və tarixi günlərlə bağlı tədbirlər keçirilməlidir.

Müasir dövrdə informasiya-kommunikasiya texnologiyalarından istifadə hər bir ölkənin intellektual və elmi potensialının vacib göstəricilərindən sayılır. Nursu kənd tam orta məktəbinin kompüter sinfində də 19 kompüter dəsti quraşdırılmış və internetə çıxış təmin edilmişdir.

Məktəblərdə elektron lövhələrin tətbiqi də təhsilin keyfiyyətinin yaxşılaşdırılmasına kömək edir. Bu avadanlıqların ən mühüm üstünlüklərindən biri də birbaşa internetə çıxış imkanının olmasıdır. Bu da məktəblərin distant tədris şəbəkəsinə qoşulmaqla elektron informasiya mübadiləsi aparılmasına və virtual dərslərin keçilməsinə imkan verir. Məktəbin elektron lövhəli sinfində 192 ümumtəhsil məktəbi ilə Cəlil Məmmədquluzadənin ev-muzeyi arasında videobağlantı qurulmuş və virtual dərs keçilmişdir.

Kimya-biologiya və fizika laboratoriyalarına baxış zamanı qeyd olunmuşdur ki, məktəbdə dəqiq elmlərin tədrisinə xüsusi diqqət yetirilir. Müasir tədris-təcrübə avadanlıqları ilə təchiz olunan laboratoriyalarda yaradılan şərait şagirdlərin keçilən dərsləri daha yaxşı mənimsəməsinə kömək edəcəkdir.

Şagirdlərin hərbi-vətənpərvərlik tərbiyəsinin yüksəldilməsi, onların ilkin hərbi vərdişlərə yiyələnməsi də tədris proqramının tərkib hissəsi kimi diqqət mərkəzində saxlanılır. Bu məqsədlə kənd məktəbində hərbi kabinə yaradılmış, müxtəlif məlumat stendləri asılmışdır.

Məktəbin idman zalında da hər cür şərait vardır. Ali Məclisin Sədri bədən tərbiyəsi və idman dərslərinin tədris proqramına uyğun keçilməsinin, şagirdlərin fiziki hazırlığına diqqətin artırılmasının vacibliyini qeyd etmişdir.

Məktəbin müəllimləri ilə görüşən Ali Məclisin Sədri demişdir ki, məktəbdə tədrisin keyfiyyətinin yüksəldilməsi və nailiyyətlərin daha da artırılması üçün hər cür şərait yaradılmışdır. Müəllimlər yaradılan bu şəraitdən səmərəli istifadə etməli, intellektli və vətənpərvər gənclər yetişdirməlidirlər. Gənclərin vətənpərvər böyüdülməsində əsas amil onlara nümunə göstərməkdir. Bu kəndin yetirməsi olan görkəmli Azərbaycan şairi Məmməd Arazın həyat və yaradıcılığı bu mənada ən yaxşı vətənpərvərlik nümunəsidir.

Məktəbin müəllimi Rizvan Bağırov dağ kəndi olan Nursuda müasir məktəb binasının istifadəyə verilməsini muxtar respublikamızda təhsilə göstərilən qayğının nəticəsi kimi dəyərləndirmiş, yaradılan şəraitə uğurlu nailiyyətlər qazanmaqla cavab verəcəklərini bildirmişdir.

Məktəb binasının həyətində də abadlıq işləri aparılmış, gül kolları və ağaclar əkilmişdir.



## Dövlət qurumları yeni kənd mərkəzində fəaliyyət göstərəcəkdir





Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Nursu Kənd Mərkəzinin də açılışını etmiş, binada yaradılan şəraitlə tanış olmuşdur.

Məlumat verilmişdir ki, kənd mərkəzinin birinci mərtəbəsində kitabxana, rabitə evi, polis sahə və baytarlıq məntəqələri yerləşir. Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, inzibati ərazi dairəsi üzrə nümayəndəlik, mədəniyyət evi üçün otaqlar və 70 yerlik zal isə binanın ikinci mərtəbəsindədir.

Əhalinin maariflənməsində və asudə vaxtın səmərəli təşkilində əvəzsiz rolu olan kənd kitabxanasında oxucular üçün lazımi şərait yaradılmışdır. Burada 6 min 566 kitab vardır.

Kənd mərkəzindəki rabitə evində poçt şöbəsinin fəaliyyəti təmin olunmuş, yeni nəsil Avtomat Telefon Stansiyası quraşdırılmışdır. Bu da abunəçilərə telefon, videotelefon, IP televiziya, genişzolaqlı internet və digər elektron xidmətlərin göstərilməsinə imkan verəcəkdir.

Binada baytarlıq məntəqəsinin səmərəli fəaliyyəti üçün ayrıca iş otağı ayrılmış, lazımi dərman preparatları qoyulmuşdur. Bu da kənddə mal-qaranın təhlükəli xəstəliklərdən qorunmasında, heyvanlar arasında yoluxucu xəstəliklərin yayılmaması üçün planlı şəkildə epizootiya əleyhinə profilaktik tədbirlərin aparılmasında, heyvandarlıq məhsullarının sanitar keyfiyyətinə nəzarətin həyata keçirilməsində mühüm rol oynayacaqdır.

Kəndin ictimai-mədəni həyatında öz fəallığı ilə seçilən Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatının 70 üzvü vardır. Onlardan 22-si gənclər, 20-si isə qadınlardır.

Kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik üçün ayrılmış otaqlarda da müasir iş şəraiti yaradılmışdır. Tədbirlər zalında isə ictimai-mədəni tədbirlərin keçirilməsi üçün bütün imkanlar vardır.

## Nursu kəndində əhaliyə nümunəvi tibbi xidmət göstəriləcəkdir





Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə əhaliyə göstərilən tibbi xidmətin keyfiyyətinin yüksəldilməsi istiqamətində ardıcıl tədbirlər görülür. Muxtar respublikada da bu vacib sahənin inkişafı diqqət mərkəzində saxlanılır, yeni səhiyyə ocaqları tikilərək istifadəyə verilir.

Dekabrın 1-də Nursu kəndində yeni həkim ambulatoriyasının açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov ambulatoriyanın açılışını etmiş, binada yaradılan şərait və kənddə əhaliyə göstərilən tibbi xidmətin keyfiyyəti ilə maraqlanmışdır.

Bildirilmişdir ki, iki mərtəbədən ibarət olan binada 11 otaq, o cümlədən stomatoloji kabinə, palata, doğuş, peyvənd, aptek, baş həkim, mama, tibb bacısı, qeydiyyat, müayinə və manipulyasiya otaqları yerləşir. Xəstəxanatipli həkim ambulatoriyası lazımi tibbi avadanlıqlar və dərman vasitələri ilə təmin olunmuşdur. Hazırda ambulatoriyada 7 tibb işçisi sakinlərə xidmət göstərir. Tibb işçiləri kənddə peyvənd işinin vaxtlı-vaxtında aparılmasına və gigiyenik qaydalara əməl olunmasına, səhiyyə maarifi işinin təşkilinə diqqət yetirirlər.

Ambulatoriyada istilik sistemi quraşdırılmış, binanın həyətində abadlıq işləri aparılmışdır.

Ardı 3-cü səhifədə

# Kənddə yeni xidmət mərkəzinin açılışı olmuşdur








Həmin gün Nursuda yeni xidmət mərkəzi də istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov xidmət mərkəzinin açılışını bildirən lenti kəsmişdir.

Məlumat verilmişdir ki, Nursu kimi dağlıq ərazilərdə yerləşən kəndlərdə bu cür xidmət obyektlərinin tikilib istifadəyə verilməsi mühüm əhəmiyyət daşıyır. Xidmət mərkəzində bərbərxana, qadın gözəllik salonu, ət satışı yeri, ərzaq və təsərrüfat malları mağazaları fəaliyyət göstərir. Mərkəzin istifadəyə verilməsi həm də kənddə yeni iş yerlərinin açılmasına səbəb olmuşdur. Hazırda burada 5 nəfər daimi işlə təmin olunmuşdur.

Mərkəzlə tanışlıqdan sonra Ali Məclisin Sədri sakinlərlə görüşmüşdür.

Kənd ziyalısı Qəzənfər Məmmədov sakinlər adından minnətdarlıq edərək demişdir ki, Nursu kəndi aparılan quruculuq işlərindən sonra öz görkəmini tamamilə dəyişmişdir. Kənddə yeni sosial obyektlərin və Xalq şairi Məmməd Arazın ev-muzeyinin istifadəyə verilməsi sakinlər tərəfindən razılıqla qarşılanır. Çünki ucqar dağ kəndində yaradılan bu şərait dövlətimizin iqtisadi qüdrətinin göstəricisi, eyni zamanda insanlara göstərilən qayğının daha bir ifadəsidir. Hər bir sakin göstərilən bu qayğıya öz əməli işi ilə cavab verəcək, ölkəmizin inkişafında yaxından iştirak edəcəkdir.

Ali Məclisin Sədri Nursu kəndində yeni sosial obyektlərin istifadəyə verilməsi münasibətilə sakinləri təbrik edərək demişdir: "Nursu Azərbaycanın ən tanınmış kəndlərindən biridir. Bu kənd Məmməd Araz kimi görkəmli şəxsiyyət yetirmişdir. Kənddə yaşamaq, təsərrüfatla məşğul olmaq üçün hər cür şərait yaradılmış, Nursu muxtar respublikanın abad yaşayış məntəqələrinin sırasına qoşulmuşdur. Bu gün həkim ambulatoriyasının, kənd yolunun, məktəb binasının, kənd və xidmət mərkəzlərinin istifadəyə verilməsi Nursunun hərtərəfli inkişafına hesablanmış tədbirlərdir. Dövlətin və sakinlərin birgə səyi Nursu kəndini bundan sonra daha da inkişaf etdirəcəkdir".

* * *

Həyata keçirilən abadlıq-quruculuq tədbirləri nəticəsində Nursu kəndinin rabitə, elektrik, qaz və su təchizatı da yenidən qurulmuş, müasir kommunal şərait yaradılmışdır. Şahbuz şəhərindən Nursu kəndinədək 7 kilometr məsafədə fiber-optik, 800 metr yerüstü, 750 metr yeraltı rabitə xətti çəkilmiş, 250 kilovolt-amper gücündə yeni transformator yarımstansiyası quraşdırılmışdır. Həmçinin 210 metr uzunluğunda müxtəlif diametrli qaz xətlərinin yeri dəyişdirilmiş, yeni tikilələrə 770 metr uzunluğunda qaz və 720 metr yeni içməli su xətti çəkilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**



# Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında

## *Ümummilli lider Heydər Əliyevin yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti*

*(Əvvəli qəzetin ötən sayında)*

Neftin elmi-texniki tərəqqidə, dünya iqtisadiyyatının inkişafında oynadığı böyük rol XX əsrdə onu ayrı-ayrı ölkələrin daxili və xarici siyasətinin, beynəlxalq siyasətin təsirli amillərindən birinə, mühüm coğrafi-siyasi və coğrafi-strateji amilə çevirdi. Neft mənbələri, neft bazarları uğrunda gedən kəskin mübarizə dünyada qüvvələr nisbətinin formalaşmasına, beynəlxalq siyasətin gedişinə öz güclü təsirini göstərdi. Tarixin belə bir təəssüf doğuran gerçəkliyi də var ki, bəzi neftçıxaran ölkələr bu qiymətli sərvətdən öz xalqlarının firavanlığı və tərəqqisi üçün istifadə etmək imkanından uzun illər ərzində məhrum olmuş, böyük dövlətlərin güclü təzyiqi nəticəsində müstəqil siyasət yeritmək imkanını itirmişlər. Həmin ölkələrin xalqları öz təbii sərvətlərinin tam sahibi olmaq uğrunda həmişə mübarizə aparmış və öz məqsədlərinin həyata keçirilməsinə bu və ya digər dərəcədə nail olmuşlar.

Azərbaycan xalqının da azadlıq və müstəqillik uğrunda mübarizəsində öz təbii sərvətlərinin sahibi olmaq arzusu əsas məqsədlərdən biri idi. Bu gün iftixar hissi ilə deyə bilərik ki, Azərbaycan xalqı uzun illər boyu ürəyində gəzdirdiyi arzusuna çatmışdır və öz təbii sərvətlərinin, o cümlədən neftinin tam sahibidir və ondan necə istifadə olunmasını sərbəst surətdə müəyyən edir.

XX əsrdə Azərbaycanın neft hasilatı, o cümlədən Xəzər dənizində neftçıxarma sahəsindəki uğurları yüksək qiymətə layiqdir. Dünyada neft hasilatı sahəsində həyata keçirilmiş işlərin bir çoxu öz başlanğıcını Azərbaycandan götürmüşdür. Neçə-neçə qazma üsulları, neft texnologiyaları, dənizdə neft çıxarılması üçün yaradılmış nadir Neft Daşları şəhəri Azərbaycan mütəxəssislərini bu sahədə dünyada aparıcı mövqelərə çıxartdı. Keçmiş SSRİ-nin yeni yaranan neft rayonlarının "İkinci Bakı", "Üçüncü Bakı" adlandırılması buna əyani sübutdur. Ölkəmizdə neftçıxarmanın inkişafı elmin kimya, neft kimyası, geologiya kimi, sənayenin neft maşınqayırması, neftayırma boru-prokat istehsalı, kimya, neft kimyası kimi sahələrinin vüsət almasına təkan verdi. Azərbaycanda neftlə bağlı sahələr üzrə böyük alim və mütəxəssislər ordusu yarandı.

**Ulu öndər Heydər ƏLİYEV:** ***İkinci minilliyin tarixi əyani surətdə göstərir ki, Azərbaycan xalqı dünya mədəniyyətində öz dəst-xətti ilə seçilən xalqlardandır. Keçən iki min il ərzində bəşər sivilizasiyasının ayrılmaz hissəsi kimi azərbaycanlılar dünya mədəniyyəti xəzinəsinə sanballı töhfələr vermişlər.***

Əvvəlki nəsillərin görkəmli nailiyyətlərini inkişaf etdirərək, müstəqil Azərbaycanın bu günü və sabahı üçün böyük tarixi əhəmiyyət kəsb edən neft strategiyasının hazırlanması və həyata keçirilməsi gələcək nəsillər üçün xoş güzəranın təməlini qoydu. Məhz 1994-cü ildə imzalanmış və "Əsrin müqaviləsi" adını almış saziş ilə XXI əsrdə Azərbaycanın dinamik inkişaf yolu müəyyən olunmuşdur.

Müstəqil Azərbaycanın neft strategiyasını ardıcıl həyata keçirərək biz böyük uğurlara nail olmuşuq. Gələcəkdə isə bu uğurlar daha da artacaqdır. Azərbaycan artıq indi bölgənin coğrafi-siyasi mərkəzinə çevrilmişdir. Azərbaycanın bölgədəki və onun hüdudlarından kənardakı vəziyyətə təsiri getdikcə artmaqdadır. Təbii ki, neft özlüyündə bizim üçün heç də məqsəd deyildir. O, Azərbaycan Respublikasının müstəqilliyinin möhkəmləndirilməsi, iqtisadiyyatın digər sahələrinin inkişaf etdirilməsi, yeni sahələrin yaradılması, xalqın rifah halının yüksəldilməsi kimi ali məqsədlərimizin uğurla həyata keçirilməsi üçün güclü bir vasitədir, əlverişli bir mənbədir. Tam qətiyyətlə demək olar ki, bu vasitədən səmərəli və məqsədyönlü istifadə etməklə, bu mənbədən lazımınca bəhrələnməklə biz yaxın gələcəkdə Azərbaycanı ən yüksək həyat səviyyəli ölkələrdən birinə çevirə biləcəyik. Əslində, yüzilliyin son günlərində biz "Əsrin müqaviləsi"nin, neft strategiyamızın uğurlu olduğunun bir daha şahidi olduq.

Əlbəttə ki, neft sahəsində əldə edilən uğurlar, ilk növbədə, Azərbaycanda mövcud olan qüdrətli insan potensialı ilə bağlıdır. Məhz Azərbaycan xalqının intellektual və yaradıcı imkanları ötən əsrdə, başa çatmaqda olan minillikdə dünya mədəniyyətinə bir çox maddi və mənəvi sərvətlər bəxş etməsi üçün zəmin yaratdı.

Keçdiyimiz yola nəzər salarkən aydın olur ki, biz nadir bir irsin varisləriyik. Hər bir Azərbaycan vətəndaşı bu irsə layiq olmağa çalışaraq böyük bir tarixi keçmişi, zəngin mədəniyyəti, yüksək mənəviyyatı olan ölkəmizin həm dününə, həm bu gününə, həm də gələcəyinə dərin bir məsuliyyət hissi ilə yanaşmalıdır.

Azərbaycanın taleyi belə gətirmişdir ki, coğrafi-siyasi mövqeyinə görə o, həmişə sivilizasiyaların qovuşuğunda olmuş və istər Qərbin, istərsə də Şərqin çox güclü təsirini öz üzərində hiss etmişdir. Məlumdur ki, Azərbaycan insanın, bəşəriyyətin beşiyi olan nadir ölkələrdən biridir. Burada həyat çox erkən yaranmışdır və Azıx mağarasında tapılmış Azıxantrop Azərbaycanın ən qədim ibtidai insan məskənlərindən biri olmasını sübut edir. Qobustandakı və Gəmiqayadakı qayaüstü təsvirlər və petroqliflər, Kür-Araz və Xocalı mədəniyyətlərinə aid maddi-mədəniyyət nümunələri, Kurqan tapıntıları sübut edir ki, hətta Miladdan əvvəlki minilliklərdə də Azərbaycanda inkişaf etmiş mədəniyyət mövcud olmuşdur.

Eramızdan əvvəl birinci minilliyin sonunda, eramızın birinci minilliyinin əvvəlində Azərbaycan müxtəlif mədəniyyətlərin və dinlərin təsirinə məruz qalmışdır. Məhz bunun nəticəsində tarixən ölkəmizdə müxtəlif dinlərə münasibətdə yüksək tolerantlıq, dözümlülük mühiti yaranmışdır. Yunan-Roma mədəniyyətinin, bütün antik sivilizasiyanın güclü təsiri altında inkişaf edən elm, ədəbiyyat və incəsənətimiz çox erkən dövrlərdə özünəməxsus forma və məzmuna malik olmağa başlamışdır. Bununla yanaşı, sözsüz ki, bizim zəngin mədəniyyətimizin formalaşmasına müxtəlif mərhələlərdə həm zərdüştilik, yəhudi, xristian, həm də islam mədəniyyətlərinin təsiri olmuşdur. Karvan yollarının üstündə yerləşərək Böyük İpək Yolunun mühüm mərkəzlərindən biri olmuş Azərbaycan müxtəlif siyasi baxışların, iqtisadi münasibətlərin, dövlətçilik formalarının təsirini öz üzərində hiss etmişdir.

İkinci minilliyin tarixi əyani surətdə göstərir ki, Azərbaycan xalqı dünya mədəniyyətində öz dəst-xətti ilə seçilən xalqlardandır. Keçən iki min il ərzində bəşər sivilizasiyasının ayrılmaz hissəsi kimi azərbaycanlılar dünya mədəniyyəti xəzinəsinə sanballı töhfələr vermişlər. Bizim əcdadlarımız ibtidai insanın mədəniyyət sahəsində əldə etdiyi bütün nailiyyətlərdən faydalanaraq özünəməxsus zəngin mədəni-mənəvi irs yaratmışlar. Bunu istər Azərbaycan ərazisində arxeoloji qazıntılar nəticəsində tapılmış abidələr, istərsə də bu günümüzə qədər gəlib çatmış şifahi xalq ədəbiyyatı və yazılı ədəbi irsimiz sübut edir.

*(Ardı qəzetin növbəti sayında)*

# Bolqarıstanda Naxçıvan Muxtar Respublikasının 90 illiyi münasibətilə rəsmi qəbul təşkil olunmuşdur





*Bolqarıstanın paytaxtı Sofiya şəhərində Azərbaycanın bu ölkədəki səfirliyi tərəfindən Naxçıvan Muxtar Respublikasının 90 illiyi münasibətilə rəsmi qəbul təşkil olunmuşdur.*

Əvvəlcə Azərbaycanın və Bolqarıstanın Dövlət himnləri səsləndirilmişdir.

Azərbaycanın Bolqarıstandakı səfiri Emil Kərimov çıxış edərək Naxçıvan Muxtar Respublikasının tarixi barədə ətraflı məlumat vermişdir.

Bolqarıstanda səfərdə olan Naxçıvan Muxtar Respublikasının nümayəndə heyətinin rəhbəri, Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Səfərov çıxışında ölkələrimiz arasındakı dostluq əlaqələrindən danışmış, Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin Sofiya şəhərində qeyd olunmasından məmnunluğunu bildirmişdir. Vüqar Səfərov Naxçıvan Muxtar Respublikasının tarixi, görkəmli xadimləri, zəngin mədəniyyəti, gözəl təbiəti, o cümlədən dünyada ən qədim və gözəl şəhərlərdən biri olan Naxçıvan şəhəri barədə tədbir iştirakçılarını məlumatlandırmışdır.

Rəsmi qəbulda qonaqlara Naxçıvan mətbəxinin nümunələri təqdim edilmiş, muxtar respublika ilə bağlı film nümayiş olunmuşdur.

Sonda qonaqlara Naxçıvan Muxtar Respublikasının 90 illiyinə həsr edilmiş bolqar və ingilis dillərində nəşr olunmuş broşürlər, o cümlədən muxtar respublikaya aid digər nəşrlər və milli suvenirlər təqdim edilmişdir.

Tədbirdə Bolqarıstan Prezidenti Administrasiyasının, Nazirlər Kabinetinin, müxtəlif nazirliklərin, özəl qurumların, siyasi partiyaların təmsilçiləri, yerli icra hakimiyyəti başçıları, bələdiyyə sədrləri, tanınmış iş adamları, mədəniyyət, elm, təhsil ocaqlarının rəhbərləri, diplomatik korpusun nümayəndələri və Azərbaycan diasporunun üzvləri iştirak etmişlər.




*3 dekabr Beynəlxalq Əlillər Günüdür*

# Məhdud fiziki imkanlı şəxslər dövlətimizin hərtərəfli qayğısı ilə əhatə olunmuşlar

*Birləşmiş Millətlər Təşkilatı Baş Məclisinin 1992-ci il 14 oktyabr tarixli qərarı ilə hər il dekabrın 3-ü dünyada "Beynəlxalq Əlillər Günü" kimi qeyd olunur.*

Ölkəmizdə əlillərin sosial müdafiəsi ilə bağlı həyata keçirilən tədbirlərin əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur. Ümummilli lider əlillərin cəmiyyətə inteqrasiyası istiqamətində ardıcıl tədbirlər həyata keçirmiş, əlilliyin qarşısının alınması, əlillərin reabilitasiyası və sosial müdafiəsini daim diqqət mərkəzində saxlamışdır. Həmçinin ulu öndər Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olanların ailələrinə, fiziki sağlamlığını itirən insanlara, onların problemlərinə də böyük həssaslıqla yanaşmış, əlillərin, müharibə veteranlarının, şəhid ailələrinin mənzil şəraitinin yaxşılaşdırılması istiqamətində əhəmiyyətli işlər görülmüşdür.

Bu gün də ölkəmizdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə sosial qayğıya ehtiyacı olan vətəndaşların, o cümlədən məhdud fiziki imkanlı şəxslərin sosial müdafiəsinin gücləndirilməsi, onların cəmiyyətə inteqrasiyası istiqamətində ardıcıl tədbirlər görülür. Son illər müvafiq kateqoriyadan olan şəxslərin sosial təminatının daha da yaxşılaşdırılmasına xidmət edən, onlara sosial, iqtisadi və hüquqi təminatlar verən bir sıra normativ-hüquqi aktlar qəbul edilmişdir. Sosial siyasətin davamlı inkişafı müvafiq kateqoriyadan olan vətəndaşların həyat şəraitini hər ötən il daha da yüksəldir, yeni təqaüd və müavinətlər təsis edilir, pensiya və sosial müavinətlərin məbləği mütəmadi olaraq artırılır.

Muxtar respublikada da sağlamlıq imkanları məhdud şəxslərin tibbi və sosial reabilitasiyası, habelə cəmiyyətə inteqrasiyası istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Məhdud fiziki imkanlı şəxslər üçün fərdi evlərin və ümumi yaşayış binalarının tikilib istifadəyə verilməsi, onların minik avtomobilləri və müxtəlif texniki-bərpa vasitələri, protez-ortopediya məmulatları ilə təmin edilməsi, tənha yaşayan, köməyə ehtiyacı olan şəxslərə mənzilində sosial-məişət xidmətinin göstərilməsi, habelə asudə vaxtlarının səmərəli təşkilinə yönəlmiş işlər onların həyat səviyyəsinin yüksəlməsinə səbəb olmuşdur. Hazırda muxtar respublikada sağlamlıq imkanları məhdud vətəndaşların sosial müdafiəsini gücləndirmək məqsədilə 6 min 474 əlil vətəndaşa, o cümlədən 1850 sağlamlıq imkanları məhdud 18 yaşınadək uşağa aylıq sosial müavinət, 244 şəhid ailəsinə, 874 müharibə əlili və iştirakçısına, eləcə də I qrup 669 əlilə Prezident təqaüdü ödənilir. 82 sağlamlıq imkanları məhdud şəxsə isə sosial-məişət xidməti göstərilir.





Məhdud fiziki imkanlı şəxslərin reabilitasiyası sosial tədbirlərin əsas istiqamətlərindəndir. Cari ilin 10 ayı ərzində sağlamlıq imkanları məhdud şəxslərin tibbi reabilitasiyası məqsədilə Naxçıvan Əlillərin Bərpa Mərkəzində 165 nəfərin, Naxçıvan Uşaq Bərpa Mərkəzində 277 uşağın müalicəsi təmin edilmiş, eyni zamanda onurğa və sinir xəstəlikləri olan məhdud fiziki imkanlı 6 nəfər Yunanıstan Respublikasına, sağlamlıq imkanları məhdud 6 uşaq valideynlərinin müşayiəti ilə Latviya Respublikasına, bu kateqoriyadan olan 15 uşaq isə Gürcüstanın Acarıstan Muxtar Respublikasına müalicəyə göndərilmişdir. Göstərilən dövlət qayğısının daha bir ifadəsi olaraq, sağlamlıq imkanları məhdud 272 nəfər müxtəlif texniki reabilitasiya vasitələri ilə təmin olunmuş, 147 nəfərə protez-ortopedik xidməti göstərilmiş, 56 nəfərin sosial-məişət şəraitinin yaxşılaşmasına, 26 nəfərin isə respublika daxilində müalicəsinə maddi köməklik göstərilmişdir. Bundan əlavə, Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün müdafiəsi zamanı, Çernobıl Atom Elektrik Stansiyasında baş vermiş qəzanın nəticələrinin aradan qaldırılmasında iştirak edərək sağlamlığını itirmiş şəxslər və 1941-1945-ci illər müharibəsi əlilləri 60 ədəd minik avtomobili ilə təmin edilmişlər. Sosial xidmət göstərilən tənha sağlamlıq imkanları məhdud şəxslər evlərində ziyarət edilmiş, onların zəruri problemləri yerində həll edilmiş və tibbi müayinədən keçmişlər.

Əlamətdar günlərdə müvafiq kateqoriyadan olan vətəndaşların iştirakı ilə silsilə tədbirlər bu il də davam etdirilmişdir. Təşkil olunan görüşlərdə, ümumilikdə, 1884 ahıl və sağlamlıq imkanları məhdud şəxsə bayram sovqatı və hədiyyələr təqdim edilmiş, "Bilik Günü" münasibətilə keçirilən tədbirlərdə aztəminatlı sağlamlıq imkanları məhdud 271 şagirdə məktəbli geyim forması, çanta və dərs ləvazimatları verilmişdir. Keçirilən bayram tədbirlərində, eyni zamanda əsgərlər qarşısında sağlamlıq imkanları məhdud ifaçılardan ibarət musiqi qrupu konsert proqramı ilə çıxış etmişdir. Hər il Beynəlxalq Əlillər Gününün qeyd olunması ölkəmizdə, eləcə də muxtar respublikada bu kateqoriyadan olan insanlara göstərilən qayğının daha bir nümunəsidir. Ötən il də bu münasibətlə Naxçıvan şəhərində və rayonlarda sağlamlıq imkanları məhdud şəxslərlə görüşlər keçirilmiş və onlara sovqatlar verilmişdir.

Muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqların sosial müdafiəsinin gücləndirilməsi, həmçinin təhsil hüququnun təmin olunması daim diqqət mərkəzindədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı" bu kateqoriyadan olan uşaqlara göstərilən diqqət və qayğının daha bir ifadəsidir. Dövlət proqramına uyğun olaraq, Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində Distant Tədris Mərkəzi istifadəyə verilmişdir. Hazırda hərəkət qabiliyyətinin məhdudluğu səbəbindən məktəbə gedə bilməyən 18 uşaq distant təhsil sisteminin imkanlarından istifadə edir.

Məhdud fiziki imkanlı şəxslərin, o cümlədən sağlamlıq imkanları məhdud uşaqların asudə vaxtlarının səmərəli təşkili, intellektual səviyyələrinin inkişaf etdirilməsi istiqamətində davamlı tədbirlər görülür. Qeyd olunan dövr ərzində paralimpiyaçılar arasında stolüstü tennis, yüngül atletika, peyntbol, qolbol idman növləri üzrə, sağlamlıq imkanları məhdud uşaqlar arasında intellektual və kinekt oyunları, "oxu, qavra" adlı mütaliə, inşa və brayl yazı müasabiqələri, şahmat, xalq uşaq oyunlarından ibarət əyləncəli idman yarışları, "Naxçıvanım mənim" mövzusunda rəsm, əl işləri və musiqi müsabiqələri təşkil edilmişdir. Sağlamlıq imkanları məhdud şəxslərin və ahılların istedadlarının üzə çıxarılması, onların yaradıcılıq potensiallarının inkişaf etdirilməsi və fərdi məşğulluqlarının təmin edilməsi istiqamətində həyata keçirilən tədbirlərin davamı olaraq, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda bu kateqoriyadan olan 53 müəllifin 137 adda əl işi və 34 adda müxtəlif janrlarda çəkdikləri rəsmlərin sərgi-müsabiqəsi və satışı təşkil olunmuşdur.

Muxtar respublikada məhdud fiziki imkanlılara göstərilən sosial xidmətlərin həcmi davamlı olaraq artır. Sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyasını sürətləndirmək məqsədilə Naxçıvan Uşaq Bərpa Mərkəzində multisensorlu terapiya otağı yaradılmış, görmə qabiliyyəti məhdud şəxslər üçün hər ay "Könül işığı" adlı brayl jurnalının nəşrinə başlanılmışdır. Yay tətili dövründə sağlamlıq imkanları məhdud 47 uşağın Ağbulaq İstirahət Mərkəzində istirahətinin təşkil edilməsi də bu məqsədə xidmət edən tədbirlərdəndir. Həmçinin ötən dövr ərzində uşaq serebral iflici, autizm və daun sindromlu uşaqların sosial inteqrasiyasına nail olmaq məqsədilə Naxçıvan Əlillərin Bərpa Mərkəzinin həkim-nevropatoloqu və Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin müəllim-defektoloqu valideynlərlə maarifləndirici görüşlər keçirmişlər.

Müasir dövrdə əmək ehtiyatlarının əmək bazarına uyğun formalaşdırılması və onlardan səmərəli istifadə mühüm əhəmiyyət kəsb edir. Bu mənada Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası, əhalinin, o cümlədən sağlamlıq imkanları məhdud şəxslərin məşğulluq imkanlarının artmasına, onların sosial müdafiəsinin güclənməsinə zəmin yaratmışdır. Bu istiqamətdə həyata keçirilən tədbirlər nəticəsində sağlamlıq imkanları məhdud şəxslərin sosial reabilitasiyası, həmçinin onların müvəqqəti məşğulluqlarını təmin etmək məqsədilə bu kateqoriyadan olan 21 vətəndaş peşə kursuna cəlb edilmiş, bağlanmış müqavilə əsasında 24 qadın tərəfindən toxunmuş 2 min 966 cüt yun corab hərbi hissələrə təhvil verilmişdir. 2014-cü ilin müvafiq dövründə, ümumilikdə, sağlamlıq imkanları məhdud 95 şəxs məşğulluq xidməti orqanları tərəfindən işə düzəldilmişdir.

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: **"Bu gün Azərbaycanda insanlara qayğı həyata keçirilən sosial siyasətin mühüm tərkib hissəsidir. Ulu öndərimiz tərəfindən müəyyənləşdirilən bu yolun uğurla davam etdirilməsi, bu yola yüksək sədaqət göstərilməsi ölkəmizdə bütün sahələrin sürətli inkişafını təmin edir".** Muxtar respublikada aparılan uğurlu sosial siyasətin tərkib hissəsi olaraq bundan sonra da xüsusi qayğıya ehtiyacı olan şəxslərin sosial müdafiəsinin gücləndirilməsi, onların sosial rifahının daha da yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçiriləcəkdir.*

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

**ŞƏRQ qapısı**
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Kərəm Həsənov
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
Tiraj: 4020. Sifariş № 1008